YUXULAR

İlham Qəhrəman

Yuxu-1

Əyan oldu mənə sonuncu sirrim,

Qalmadı daha bir dərdim dünyada,

Öldüm - olümü də gördüm dünyada.

…Gördüm ki, ölmüşəm səhərə yaxın,

Bir yol qırağıdı - şəhərə yaxın.

Keçir dörd yanımdan -

axır adamlar,

Boylanır… harasa baxır adamlar.

Biri də gözünün ucuyla baxmır,

Qardaşım da baxmır,

bacım da baxmır…

Dost qoyur özünü görməməzliyə,

Baxıram, irəli duranım yoxdu,

Ağlayıb saçını yolanım yoxdu.

Elə bil tutulub qolum-qanadım,

Mən elə key kimi baxıram mənə,

Yaman yer elədi axırım mənə…

Öləsən, irəli duran olmaya,

Öləsən, ortada qala meyidin.

Axırı qaçasan haraya özün,

Deyələr hardadı, bala, meyidin?..

Deyələr ölmüsən, qan olmayıb ki,

Toxtaq ol,

ölmüsən,

canın sağ olsun!

May, 1997

Yuxu-2

O gecə yuxuma şeytan əl qatdı,

Əl qatdı - vayğada məni aldatdı…

Canım çarpayıda yatılı qaldı,

Ruhum kölgə kimi çıxdı bədəndən,

Elə bil xəncəri çəkdilər qından.

Bir qız yer üzündən qopardı məni,

Sehrli aləmə apardı məni.

Dörd tərəf ağappaq süd dumanıydı,

Qızın ağ köynəyi yelçəkən idi.

Açıldı qollarım qanad əvəzi,-

Uçdum arxasınca əl çəkəmmədim.

Uçurdum,-

Uçduqca yol aparırdı,

Nə bilim, bəlkə də hal aparırdı…

Elə bil qız mənim tanışımıydı,

Elə bil min ildi sevirdim qızı.

Baxıb gülümsəyir xeyir-duayla,

Başımın üstündə Zöhrə ulduzu.

Gördüm gün çönübdü - tərsinə düşür,-

Kölgəm ulduzların üstünə düşür.

Ulduzlar örüşə yayılan quzu,-

Həm təkdi, həm cütdü, həm də üçəmdi.

Bütün planetlər kənddi, şəhərdi,

Bu sonsuz fəza da yoldu, küçədi.

Qız elə gözəldi -

göz qamaşdırır,

Tez-tez sual verir -

məni çaşdırır.

Gah sağa, gah sola süzür dumanda,

Bir ağ balıq kimi üzür dumanda.

Bir bağ var - içindən bir arx su gəlir,

Burnuma cənnətin qoxusu gəlir.

Hardasa bir hava çalınır udda,

Kefim yuxarıdı Ala buluddan.

Bu dəm səs eşitdim:

-Nəyə gülürsən?!

Utana-utana durub geyindim,

Bir az ora-bura gəzib deyindim.

Başımdan dağıldı yuxu dumanı,

Gündəlik qayğılar çulğadı məni. *1999-2002*

Yuxu-3

Gördüm ki, özüməm pirani yaşda,

Çıxıb dayanmışam bir uca qaşda.

Saqqalım sallanır şəlalə kimi,

Körpələr mənimlə əylənib gedir.

Tutub saqqalımdan dəcəl uşaqlar

Saat kəfkiritək yellənib gedir.

Məni ağac bilib köçəri quşlar

Çiynimə qonurlar nəfəs dərməyə.

Gedəndə sözümü höccələyirlər.

Leyləklər başımda yuva bağlayır,

Sərçələr saçımda gecələyirlər.

Cibimdə bir ilan yuva eyləyib,

Yaz girdi yuvada yumurta qoyur,

Yay girdi bir sütül bala çıxardır.

Sonra da qolumu yola oxşadıb

Balasın qolumda yola çıxardır.

Çiynimə qalxanda bu körpə ilan

Quşları yarpaqtək uçurur məndən.

Quşların səsinə diksinib baxan

Körpə uşaqları qaçırır məndən.

Hamı tamaşaya dayanır gendən,

Quşlar qanadını saxlayıb baxır.

Gözlərim qırağa çəkilib məndən,

Gözlərim halıma ağlayıb baxır.

Sürünüb sağ-sola gəzir bu ilan,

Elə bil canımda buz hərləyirlər.

Deyərsən anamın qollarıdı bəs -

Zavallı başıma duz hərləyirlər.

Üzümdən, alnımdan sivişib keçir,

Çiynimdən sallanıb belimə yenir.

Qıvrılsa, yazdığım sətrə bənzəyir,

Düzəlsə, bir qəşəng qələmə dönür.

Qəlbimə nə damır bu dar məqamda?!

Bu ki işarədi hətta maymağa.

Bu ilan yazdığım qələmdi, fələk,

Gəlibdi ömrümə nöqtə qoymağa.

Əl deyirəm, əl tərpənmir,

Dil deyirəm, səsim gəlmir.

Məni ilanın ağzından

Almağa bir kəsim gəlmir.

Soyuq, başı yastı ilan…

Olmaz belə qəsdi olan.

Yüz illərin dostu olan

Qasım gəlmir, Məsim gəlmir.

Bircə hovur dincəlmədi,

Çaldı, çalmadı?- bilmədim…

Öldüm, ölmədim?- bilmədim…

Ta gördüm nəfəsim gəlmir.

…Axırda görürəm dörd yanım otdu,

Mən də nə tərpənir, nə də dinirəm.

Bu adam sifətim yoxa çəkilir

Mən də günü-gündən ota dönürəm.

Qış gəldi - qalıram torpağın altda,

Qış çıxdı - torpaqdan baş qaldırıram.

Payızda quruyan ot bədənimi

Baharda cücərdib yaş qaldırıram.

…O günü qəribə bir yuxu gördüm…

Başıma gələni bilirmişəm mən.

Gördüm ki, adamtək ölüb getmişəm,

Gördüm ki, ot kimi dirilmişəm mən.

2001-2003

SEVİNDİ

Durub sənə tərəf gəldim,

Gəldim ayağım sevindi.

Salam verdim dilim-ağzım,

Əlim, barmağım sevindi.

Eşq nağıldı...

vardı, yoxdu,

Güntək üstümə şaxıdı.

İlk məktubunu oxudum,

Gecə çırağım sevindi.

Adına bir ağac əkdim,

Əkib dibinə su çəkdim,

Yaz gələndə çiçəklədi,

Çəpərim, bağım sevindi.

May, 1999

MƏKTUB

(silsilə)

Sən olan yerlər necədi,

Buralar yaman tünlükdü.

İl ildən pis gəlir, gülüm,

Həsrətin yamangünlükdü.

Mənim halımı soruşma,

Göz yaşlarım bıldır-bıldır...

Sən gedəni heç bilmirəm

Bu il öldüm, yoxsa bildir?!

İlhamın dərdin sorsalar,

Deyərsən: yarası mənəm,

Üzübelə sinəsində

Dərdlərin sırası mənəm.

...Bəlkə sizə tərəf gəldim,

Axşam bulaqda olarsan.

Deyirlər İlham itibdi,

Gözdə-qulaqda olarsan.

May,1999

Gəl Özünü Çağır Məndən

Ruh bədənlə yola getmir,

Ruhum ayrılır bədəndən.

Mən gedirəm, sən qalırsan,

Gəl özünü çağır məndən!

Deyirsən mənim nəyimsən,

Məni unutdun niyə sən?

Ya sən həmənki deyilsən,

Ya ayrı mən baxır məndən.

Özün kaman, özün oxsan,

Dartılıb görərsən – yoxsan.

Gör hava istidi, yoxsa –

Əcəl təri axır məndən?!

İyun, 1996

VƏTƏN OXŞAMASI

Başımız aynımadı heç,

Sənə bir çəkmədik sığal.

Bir yandan azad oldun,

Bir yandan işğal.

Balıqçı toru kimi

Niyə yığılırsan, Vətən?!

Heç üstünə gətirmədik,

Elə çıxılırsan, Vətən.

Üstündə at oynadan

Yağılar həddini görsəydi...

Bir dərdimiz olmazdı

Qorunan sərhəddini görsəydik.

Sən bütöv hanada

yarımçıq xalı...

Səni geriyə sökdülər,

İrəli toxumadıq, Vətən.

Allahın kərəmi çox olsun,-

Bir şad günündə

Himnini oxumadıq, Vətən.

Yurd itkisi elə ağır,-

Tay tutulmaz hər itkiyə.

Yer yarıla yerə girəm,-

Mən baxmayam xəritəyə.

O kimdi qeybdən gəlir?

Gecə biznən hesab çəkir.

Vətən, sənə olan sevgim

İçimdə əzab çəkir.

Hansı dərdini söyləyim –

Birdimi, beşdimi, Vətən?

Göz üstəki oğulların

Gözündən düşdümü, Vətən?

Əl uzatsam durarsanmı?-

Daha yıxıldığın bəsdi...

Belə günündə yeyilən

İlan sümüyündən pisdi.

Yağı sənə dağ çəkdi,

Barışmağa nə üz qoydu?!

Sən bir yaşıl ağac idin,-

Kökünə kim duz qoydu?!

İndi-indi oğulların

Hələ bərkdən-boşdan çıxır.

Daşına da qurban, Vətən,

Çörəyimiz daşdan çıxır.

Məyus görkəm, kəm taleynən

Mən sənin tayınam, Vətən.

Qoy dərdlərin mənə gəlsin,

Mən dərdə qayımam, Vətən.

İyun, 1998

GÖRÜŞ

Səni tapdım elə bildim

Əl tapdı ağrıyan yeri.

Aramızda nə taledi -

Fələyin qarğıyan yeri.

Bilən bilir sevgi deyil,

Ərlə arvad istəklidi.

Üzündə yaş güzgüyə bax

Görünən sevgi şəklidi.

Aradan çox sular axdı

Axan sular dəniz deyir...

Gözünü körpə uşaqtək

Kimdi tez-tez çimizdirir?!

17.11.2009

AYRILIQ

Deyirsən hərlənmə mən olan səmtə,

Yanıma, yörəmə ayaq basma sən!

Deyirəm gözlərin deyir sevirsən,

Deyirsən gözümə qulaq asma sən!

Səndən nə çəkirəm şikayətim yox -

Nə edə bilərəm? – bəxtə çıxmısan.

Üstümdə fərmanın, hökmün yeriyir

Sən qəşəng bilirsən taxta çıxmısan!

Bu hansı kitabda yazılıb belə -

Aşiqə işvə sat, ona duzaq qur,

Yaxın buraxasan öyrəşə sənə

Axırda deyəsən məndən uzaq dur?!

Axtarıb tapıram hey dinləyirəm

Məni ovutmağa bir şərqi yoxdu.

Sevəni arxanca ağlar qoymağın

Qana batmaq ilə bir fərqi yoxdu?!

Çox sevgilər gördüm, eşqlər yaşadım,

Ayrıldım bu qədər övkələnmədim.

Elə itirmişəm müvazinəti

Mən hələ bu qayda silkələnmədim.

Təhəmmül etməyə qərarım yoxdu

Səbrimin damcısı, çırtımı qalıb.

Ürəyim sinəmdə hörüklü atdı,

Elə sənə tərəf dartını qalıb.

25.11.2017